**Zaur İsa oğlu AĞAKİŞİYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Ümumi iqtisadiyyat, doktorant*
E-mail: zaurr1978@mail.ru

# MONETAR SİYASƏTDƏ KOMMUNİKASİYA KANALI VƏ ONUN TƏSİR XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Effektiv monetar siyasətin həyata keçirilməsi kommunikasiya imkanlarından istifadə imkanı və şəraitinə bağlıdır. Qlobal iqtisadi və monetar şəraitdə baş verən proseslər və onların təsirinin yumşaldılması kommunikasiya alətindən istifadə şəraitinin təkmilləşdirilməsi və dövrün çağırışlarına uyğun olaraq tətbiqini zəruriləşdirmişdir. Bu alətin istifadəsi və təsirinin vacib elementi kimi tənzimləyici orqanın müstəqil olması tələb olunur ki, bu da iqtisadi subyektlərin inam və davranışlarının formalaşmasına öz təsirini göstərir. İqtisadi və geo-siyasi proseslərin sürətlə dəyişdiyi şərait və perspektiv imkanların qeyri müəyyənliyi kommunikasiya alətinin effektivliyinə mənfi təsir göstərir ki, bu da ictimaiyyətin məlumatlandırılması və gözləntilərin formalaşdırılmasında gözlənilən nəticələrə gətirib çıxarmır.

**Açar sözlər**: kommunikasiya şəraiti, geo-siyasi şərait, müstəqil siyasət, iqtisadi subyekt, iqtisadi davranış, proqnozların qurulması.

JEL: E 00; G 29
**UOT**: 33;330; 336;336.01;336.11; 336.741.28;336.7
**DOI:** https://doi.org/ 10.54414/CZGT9612

**Giriş**

Qlobal maliyyə böhranından sonra monetar siyasətdə kommunikasiya alətindən istifadə tezliyi və təsiri əhəmiyyətli şəkildə artmışdır. Mərkəzi bankların qlobal iqtisadi çağırışların tələbləri çərçivəsində həyata keçirdiyi mürəkkəb tənzimləmə tədbirləri sosial mediada fərqli şəkildə təzahür edir ki, bu da ictimai rəyin formalaşmasına mənfi təsir göstərə bilər. Texnoloji inkişafın sürətlə genişləndiyi şərait geniş auditoriya ilə təmasların daha effektiv qurulmasını tələb edir. Media vasitəsilə ötürülən məlumatların məqsədyönlü olması monetar siyasətin transmissiya kanallarına təsir edir ki, bununla da monetar qərarların düzgün anlaşılması və davranışların formalaşmasında özünü biruzə verir. Qlobal maliyyə böhranından sonra Covid-19 pandemiyasının təsiri ilə tənzimləmə siyasəti mürəkkəb iqtisadi şəraitdə davam etdiyi vaxtda geo-siyasi proseslərin təsirinin də əlavə olunması tənzimləmə aspektlərini mürəkkəbləşdirdi. Günümüzün reallığında bu kimi təsirlərin bazara sürətli yayılması müstəqil monetar siyasət və tədbirlərin transmissiya mexanizmlərinə təsir edərək lag effektinin proqnozlaşdırılması imkanlarını məhdudlaşdırır. Lag effektinin gözləniləndən daha gec baş verməsi isə monetar qərarların təsirinin ötürülməsi və nəticəsinin ölçülməsində problemlərin yaranmasına səbəb olur [1, s.1-3].

Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrin mərkəzi bankları monetar siyasətlə bağlı bəyanatlarında monetar siyasət tədbirlərinin qeyri müəyyən iqtisadi şəraitdə həyata keçirildiyi və data əsaslı qərarvermə təcrübəsinə daha çox əsaslandığı bunu bir daha əsaslandırır. Buradan belə bir nəticəyə gəlinir ki, monetar alətlərin tətbiqi ilə onlardan gözlənilən nəticələr fərqli formada statistik göstəricilərdə əks oluna bilər və bu göstəricilər əsas götürülərək monetar tənzimləmə ilə bağlı qərarların verilməsi izlənilir. Digər ifadə ilə desək data əsaslı qərarvermə təcrübəsi yanaşması üzərindən siyasətin aparılması datalardan asılılıq səviyyəsinin artmasına gətirib çıxarmışdır. Qeyd olunan data əsaslı tendensiyalar və onların xüsusiyyətlərinin ictimaiyyətə təqdimi kommunikasiya imkanlarının əsas zəruri elementi kimi çıxış edir ki, nəticədə müştəri davranışlarının dəyişməsi baş verir. Bir növ kommunikasiya alətinə müştəri davranışlarının formalaşması və idarə olunamsı aləti kimi də baxa bilərik.

Monetar siyasətin kommunikasiyasında nəzərə çarpan əsas mövzuları aşağıdakı kimi qeyd edə bilərik [1, s.14]:

-Mərkəzi bankın məqsədləri: əsas məqsəd olaraq qiymətlərin sabitliyinin təmini çıxış edir.

-Reaksiya istiqaməti: iqtisadi göstəricilərin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin proqnozlaşdırılması həyata keçirilir.

-İqtisadi mənzərənin qiymətləndirilməsi: inflyasiyanın mövcud səviyyəsi və hədəfdən yayınma nisbətinin ölçülməsi müəyyənləşdirilir.

- İqtisadi proseslərə təsir edən qeyri müəyyənliklər: resessiya risklərinin əlamətinin mövcudluğu, istehlak və investisya fəallığına mümkün təsiri qiymətləndirilir.

-Monetar siyasətin perspektiv istiqamətləri: bazar faiz dərəcələrinə təsir imkanı və iqtisadi hədəflərin reallaşdırılmasına təsirinin qiymətləndirilməsi

-Monetar və fiskal siyasətin əlaqə mexanizmi: məcmu tələb və məcmu təklifin formalaşmasında makroiqtisadi şəraitin təsirinin qiymətləndirilməsi

-Monetar tənzimləmənin əmək bazarına təsir xüsiyyətləri: monetar qərarların əmək bazarına təsiri və işsizlik səviyyəsinin qiymətləndirilməsi.

***Kommunikasiya prosesində strateji yanaşmalar***

Tənzimləyici orqanın bazara, insanların davranışlarına təsiri kommunikasiya imkanından istifadə şəraiti və zaman tələblərinə uyğun olmasını tələb edir. Bazara ötürülən məlumatların təsirli olması bilavasitə tənzimləyi orqana olan inam və etibardan da asılıdır. Bu etibarın qorunması mərkəzi bankların daha həssas yanaşdığı zona kimi qiymətləndirilir. Mətbuatda və sosial mediada yer alan məlumatlar daha şəffav, aydın və ardıcıllıq prinsipinə görə formalaşmalıdır. Verilən mesajla görülən tədbirlərin uzlaşması effektiv kommunikasiya imkanlarının yaradılmasının vacib istiqaməti kimi çıxış edir. Müasir dövrün kommunikasiya alətinin təhlilində mərkəzi bankların faiz dərəcələri ilə bağlı qərarlarında bu alətdən daha geniş istifadə etdiyi nəzərə çarpır. Bazar faiz dərəcələrinin tənzimləməsində istifadə oluna əsas alət olan uçot faiz dərəcəsinin dəyişdirilməsi maliyyələşdirmə imkanları və iqtisadi aktivliyə təsir etdiyindən onun potensial nəticələri dəqiq hesablanmalı və ölçülməlidir. Belə ki, qeyd olunan potensial təsirlər monetar siyasət, maliyyə nəzarəti, inkluzivlik və iqtisadi inkişaf sahələrini əhatə edir [2, s.4-5].

Monetar siyasət: Faiz dərəcəsinin aşağı və yuxarı hədlərinin müəyyən olunması monetar siyasətin transmissiya effektivliyinə, likvidlik səviyyəsinə, bankların kreditləşdirmə şərtlərinə və bazarda formalaşan faiz dərəcəsinə təsir edir. O cümlədən də daha müfəssəl şəkildə faiz dərəcəsi çərçivəsinin müəyyən olunmasının özü mürəkkəb bir alət olaraq tanınır. Çünki baş verən dəyişiklik maliyyə sistemində dalğalanma effektinin yaranmasına səbəb olmaqla təklif olunan maliyyə məhsulları və xidmətlərinin geniş çərçivədə formalaşması istiqamətlərinə təsir edir. Xüsusən sərt monetar tənzimləmə zamanı iqtisadi aktivliyin azalmasına gətirib çıxarır ki, bunun ardınca makroiqtisadi göstəricilərə öz mənfi təsirini göstərir.

Nəzarət: Faiz dərəcəsi tənzimləməsi monetar orqanlarda maliyyə sahəsində nəzarətin təşkilində problemlərin yaranmasına səbəb olur. Qiymətlərin şəffavlığı prinsipi bundan daha çox təsirə məruz qalır. Belə ki, kredit təşkilatları faiz dərəcəsi ilə bağlı qəbul olunmuş məhdudiyyətləri kompensasiya etmək üçün kreditlə bağlı qeyri faiz komissiya haqları tətbiq ede bilirlər ki, bu da bir növ tətbiq olunan qaydalardan yan keçmə kimi qiymətləndirilə bilinər.

Maliyyə inkluzivliyi: faiz dərəcəsində məhdudlaşma kredit təşkilatları tərəfindən mümkün risklərin qarşısını almaq məqsədilə yüksək risk profili reytingə malik müştərilərə resurs ayrılmasını dayandıra bilər. Bu da qeyri- rəsmi və qeyri-qanuni kreditləşmə kanallarının aktivləşməsinə şərait yarada bilər.

İqtisadi və maliyyə inkişafı: faiz dərəcələrinin bazar tənzimləmə mexanizmi üzərində məhdudlaşmanın tətbiqi borcalan və fond təmin edən tərəflər arasında səmərəli iş birliyi fəaliyyətinin pozulmasına gətirib çıxara və maliyyə dərinliyinin formalaşmasına mənfi təsir edə bilər.

Monetar siyasətdə çevik tənzimləmə elementlərinin tətbiqi zərurəti qlobal maliyyə böhranı nəticəsində ənənəvi istifadə olunan alətlərin transmissiya mexanizmində gözlənilən nəticəni tam formalaşdıra bilməməsi ilə bağlı olmuşdur. İnkişaf etmiş ölkələrin mərkəzi bankları bu çağırışlar qarşısında tənzimləmə istiqaməti və proseslərin özündə yeni alətlərin tərbiq olunması zərurətini anlayırdılar. Yekun hədəfdə maliyyə sabitliyinin təmin olunması aspekti dayandığından yeni həll

yollarının tapılması istqamətində beynəlxalq təcrübənin imkanlarından istifadə zərurəti özünü göstərməyə başlamışdı[3, s.2]. Kommunikasiya prosesinin vacib istiqamətlərindən biri kimi tənzimləyici orqanın iqtisadi və monetar şəraitlə bağlı qiymətləndirmələrin nəticələrinin ictimaiyyətlə bölüşülməsidir. İnkişaf etmiş ölkələrdə iqtisadi bülletenlər, maliyyə vəziyyəti ilə bağlı icmal hesabatı, konfransların keçirilməsi bu qəbildən əhəmiyyətli tədbir kimi qiymətləndirilməlidir. Hətta monetar qərarların qəbul olunması ilə bağlı səsvermələrin gedişatı şəffav və bitərəf formada mətbuat yayımları üçün təmin edilir. Bundan başqa mərkəzi bankların idarəetmə aparatının vəzifəli şəxsləri iqtisadi və monetar şəraitin tələbləri çərçivəsində çıxışlar edir və bunu rəsmi səhifələrində əks etdirirlər. Qeyd olunduğu kimi bu tədbirlər iqtisadi subyektlərin gözləntilərinin formalaşdırılması cəhətdən vacib hesab olunur ki, bu da iqtisadi davranışların formalaşmasına müsbət təsir edir. [4, s.16-17; 5, s.3-5].

Qlobal səviyyədə iqtisadi proseslərin daha sürətlə dəyişdiyi bir dövrə nəzər saldıqda görürük ki, ölçülməsi əvvəlcədən qeyri müəyyən olan böhranlar iqtisadi həyata mənfi təsirini göstərir. İqtisadiyyatı belə bir şəraitdə tənzimləmək üçün insanların gözləntilərinin idarə edilməsinin əhəmiyyəti də aktuallaşmışdır. Bu gözləntilər ənənəvi olaraq inflyasiya gözləntilərindən başqa iqlim dəyişikliyi ilə bağlı aparılan siyasətin təsiri və geo-siyasi proseslərin mümkün təsirləri fonunda da yaranan gözləntilərin idarə edilməsinin əhəmiyyətli olduğu müşahidə olunur. Mövzunun digər vacib istiqaməti isə kommunikasiya imkanlarının təkmilləşdirilməsi alətlərin bazara təsir mexanizmlərinin effektiv olmasını tələb edir. Ölkəmizdə uçot faiz dərəcəsinin bazara təsir imkanının zəif olması tənzimləmə sahəsinin effektivliyinə mənfi təsirini göstərir. Müasir dövrün çağırışlarında uçot faiz dərəcəsinin bazara təsir mexanizminin artırılması öz prioritetliyi ilə seçilir. Elə bir mexanizm qurulmalıdır ki, uçot faiz dərəcəsində baş verən dəyişikliyə maliyyə təşkilatları, banklar çevik reaksiya verə bilsinlər. Faiz dərəcələrində baş verən dəyişiklik transmissiya mexanizmində də özünü göstərməsi məsələnin ən vacib və ayrılmaz hissəsi kimi çıxış etməlidir. Ölkəmizdə bu mexanizmi zəifl ədən bir sıra amillər vardır. Bunlardan biri alternativ maliyyələşdirmə mənbəyi və imkanlarının olmaması, digəri isə ölkədə tətbiq olunan məzənnə rejimi ilə bağlıdır.

Kommunikasiya prosesinin fundamental aspektlərindən biri də iqtisadi qiymətləndirmələrin nəticələri ilə bağlı ictimaiyyətin məlumatlandırılmasıdır. Bu istiqamətdə inkişaf etmiş ölkələrin mərkəzi banklarının yanaşmaları tədqiqat obyekti kimi çıxış etdi. Təbii ki, mərkəzi banklar uzunmüddətli təcrübələri və həssaslıq istiqamətlərinə görə məlumatların bölüşülməsi zamanı iqtisadi və monetar şəraitin xüsusiyyətlərini nəzərə alırlar. Diqqəti çəkən digər məqam mərkəzi bankların dövri olaraq iqtisadi bülletenlər, maliyyə sabitliyi hesabatı, mətbuat üçün geniş tərkibli konfranslar, makroiqtisadi proqnozların təqdimi iqtisadi subyektlərlə mərkəzi bank arasında təmasın yaxın saxlanması siyasəti aparıldığını deməyə əsas verir. Daha fundamental qərarların qəbulu ilə bağlı müzakirələr və yekun qərarın formalaşmasına qədər keçən müzakirələri və təklifləri məqsədin tam anlaşılması üçün şəffavlığı təmin etməyə çalışırlar. Belə ki, müzakirələr və qərarların qəbul olunması ilə bağlı səsvermələr açıq qapı prinsipi çərçivəsində canlı olaraq mətbuat yayımı üçün ötürülür. Bankların idarəetmə orqanının səlahiyyətli şəxsləri verilən qərarlara zəmin yaradan səbəblər və əsas gözləntilərlə bağlı özlərinin şəxsi fikirləri və mülahizələrini bölüşürlər. Bu çıxışlar və mətbuat konfransı məlumatları tənzimləyici orqanların rəsmi səhifələrində də öz əksini tapır. Qeyd olunan tədbirləri monetar siyasətin transmissiya kanalının inkişafı və gözləntilərin idarə olunması istiqamətində çağırışlara uyğun siyasətin aparılması üsulu kimi qiymətləndirmək olar. Bununla belə müasir tənzimləmədə kommunikasiya istiqamətində təkmilləşdirici və şəffav tədbirlərin davam etdirilməsi ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi istiqamətində təkmilləşdirmələrin labüdlüyü qeyd olunur[7, s.9; 8, s.3-5].Tədqiqat zamanı məlumatların şəffav şəkildə təqdim edilməsinə mane olan obyektiv səbəblərin olduğu da müəyyən edildi. Belə ki, iqtisadiyyatda qeyri müəyyənliyin davam etdiyi zamanda bazara ötürülən məlumatların özünü doğrultmaması riski də böyükdür. Mərkəzi bankların verdiyi məlumatın sonradan fərqli mənzərədə nəticəsinin ortaya çıxması ona etibarlı maliyyə qurumu kimi fəaliyyətinin icra olunmasında müəyyən problemlər də yarada bilir. Bəzən də açıqlanan məlu-

matlar müştəri davranışına təsir edərək makroiqtisadi göstəricilərin daha da pisləşməsinə səbəb ola bilir.

**Tənzimləyici orqanın müstəqilliyi**

Müasir dövrün monetar tənzimləmə istiqamətlərində qiymət sabitliyinin təmin olunmasında məkəzi bankların müstəqil fəaliyyətinin təşkili ən vacib elementlərdən biri kimi çıxış edir. Burada müstəqillik dedikdə onun fəaliyyətinə siyasi müdaxilə olmadan, maliyyə müstəqilliyinin verilməsi, hüquqi normativ qaydaların çərçivəsində müəyyən olunmuş vəzifələrinin yerinə yetirilməsi başa düşülür. Maliyyə müstəqilliyi dedikdə burada mərkəzi bankların mandatına uyğun olaraq qarşıya qoyulan məqsədlərinə nail olunması nəzərdə tutulur. Həmçinin özünə aid maliyyə resursları və gəliri üzərində müstəqilliyi hüququnun olması vəzifə öhdəliklərinin effektiv yerinə yetirilməsinə imkan verir ki, nəticədə etibarlı maliyyə qurumu olaraq tanınmasına şərait yaradır. Mərkəzi Bank haqqında qanunda da qeyd olunan prinsiplər öz əksini tapmışdır.

Müasir dövrdə mərkəzi bankların müstəqil fəaliyyətinin davam etdirilməsi problemləri davam edir. Cari vəziyyətdə sərt monetar tənzimləmə tədbirlərinin davam etdiyi və uçot faiz dərəcəsinin artdığı şəraitdə iqtisadiyyatda bunun əks təsirlərinin də zamanla artması iqtisadi aktivliyə azaldıcı təsir etməyə başlayır və faiz dərəcələrinin azaldılması ilə bağlı çağırışlara baxmayaraq inflyasiya hədəfinə nail olunmayana qədər yumşaldılma tədbirlərinin həyata keçirilməməsi iqtisadi inkişafda problemlərin yaranmasına səbəb olur. Bunun nəticəsində bankların qərarlarına siyasi müdaxilələrin baş verməsi tendensiyaları özünü göstərməyə başlayır. Bu kimi tendensiyalarda təbii ki, dövlət və mərkəzi bank bu təzyiqlərin azaldılması istiqamətində kommunikasiya alətindən effektiv istifadə etməlidir[6].

**Nəticə**

Müasir dövrün monetar tənzimlə istiqamətlərində kommunikasiya aləti monetar şəraitin formalaşmasına təsir edən və gözləntilərin idarə olunmasına təsir edən əsas açar kimi qiymətləndirilir. Bu alətdən doğru zamanda istifadə və kommunikasiyası qədər göstəricilərin qiymətləndirilməsi və perspektiv inkişaf istiqaməti barədə məlumatların təqdimi də zəruidir. Kommunikasiya alətinin inkişafı monetar alətlərin bazara təsir mexanizmi və transmissiyası ilə birbaşa əlaqəsi olmalıdır. Transmissiya mexanizminin zəifliyi nəzərdə tutulan tədbirlərin nəticələrinin qiymətləndirilməsində də problemlərin yaranmasına səbəb olur ki, nəticədə effektivlik göstəricisinin hesablanması çətinləşir.

Digər vacib meyar monetar qərarlar verilməsində müstəqil fəaliyyətin təmin olunması ilə bağlıdır. Müstəqil fəaliyyətin təmini tənzimləyici orqanın məsuliyyətini artırmaqla çevik tədbirlərin həyata keçirilməsinə adekvat şəraiti formalaşdırır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Ehrman, M. Monetary Policy Communication: Perspectives from Former Policy Makers at the ECB / S. Holton, D. Kedan, - Research technical paper, -Vol 2022, -No 1, - January 2022. -p.47
2. Guidance Note 2 – Interest rate policy and anti-usury regulations, -BİS, - 20 December 2022. -p.5. URL: https://www.bis.org/ifc/interest_rate_policy.pdf
3. Samarina, A. Evolution of monetary policy frameworks in the post-crisis environment / A. Samarina, N. Apokoritis, - The Netherlands: DNB working paper, No.664, - 2020, -p.20.
4. Bernoth, K. The ECB’s Communication Strategy: Limits and Challenges After the Financial Crisis / K. Bernoth, D. K. Geraldine, - Luxembourg, Analysıs Requested by the ECON committee Monetary Dialogue Papers, -2020. -p.33.
5. Dincer, N. Transparency of Monetary Policy in the Post-Crisis World / N. Dincer, B. Eichengreen, P. Geraats, The Oxford Handbook of the Economics of Central Banking, - 2016. -p.32.
6. Georgieva, K. Strengthen Central Bank Independence to Protect the World Economy / K. Georgieva, - 21 March 2024. URL:https://www.imf.org/en/Blogs/Articles/2024/03/21/strengthen-central-bank- independence-to-protect-the-world-economy
7. Crowe, C. Central Bank Independence and Transparency: Evolution and Effectiveness / C. Crowe, E. E. Meade, International Monetary Fund, İMF Working Paper, WP/08/119, -2008. -p.30
8. Dincer, N. Transparency of Monetary Policy in the Post-Crisis World / N. Dincer, B. Eichengreen, P. Geraats, The Oxford Handbook of the Economics of Central Banking, - 2016. -p.32.

**Заур Иса оглы АГАКИШИЕВ**
*Азербайджанский Государственный Экономический Университет, докторант*
*E-poçt: zaurr1978@mail.ru*

## КАНАЛ КОММУНИКАЦИИ В ДЕНЕЖНО-КРЕДИТНОЙ ПОЛИТИКЕ И ЕГО ХАРАКТЕРИСТИКИ

**Резюме**

Реализация эффективной денежно-кредитной политики зависит от возможности и условий использования коммуникационных возможностей. Процессы, происходящие в мировых экономических и валютных условиях и смягчающие их влияние, привели к необходимости улучшения условий использования инструмента коммуникации и применения его в соответствии с вызовами времени. В качестве важного элемента использования и воздействия этого инструмента требуется независимость регулирующего органа, который влияет на формирование убеждений и поведения экономических субъектов. Быстро меняющиеся условия экономических и геополитических процессов и неопределенность перспективных возможностей негативно влияют на эффективность коммуникационного инструмента, что не приводит к ожидаемым результатам в информировании общественности и формировании ожиданий.

**Ключевые слова**: условия коммуникации, геополитические условия, независимая политика, экономический субъект, экономическое поведение, прогнозирование.

**Zaur Isa AGAKİSHİYEV**
*Azerbaijan State Economic University, doctorate*
*E-poçt: zaurr1978@mail.ru*

## A CHANNEL OF COMMUNICATION IN MONETARY POLICY AND ITS CHARACTERISTICS

**Abstract**

Implementation of effective monetary policy depends on the possibility and conditions of using communication opportunities. The processes occurring in the global economic and monetary conditions and mitigating their impact have made it necessary to improve the conditions of using the communication tool in accordance with the challenges of the time. As an important element of this tool, the independence of the regulatory body is required, which affects the formation of the beliefs and behaviors of economic subjects. The rapidly changing conditions of economic and geo-political processes and the uncertainty of prospective opportunities have a negative impact on the effectiveness of the communication tool, which does not lead to the expected results on informing the public and forming expectations.

**Key words**: communication conditions, geo-political conditions, independent policy, economic subject, economic behavior, forecasting.